# "Gülüstan" məclisi üzvlərinin oxucularla onlayn görüşü

**Qubada fəaliyyət göstərən A.A.Bakıxanov adına "Gülüstan" elmi-ədəbi məclisi 185 ildir ki, bizimlə yol gedir. Bu günlərdə Quba Mərkəzləşdirilmiş kitabxana Sisteminin yaxından köməkliyi ilə məclis üzvlərinin oxucularla onlayn görüşü keçirilmişdir. Görüşü məclisin sədri Ş.Seyidməmmədov açaraq qeyd etmişdir ki, biz çox həssas bir dönəmdəyik. Çətin və ağır günlər keçirdik. Son günlər baş verən hadisələr - Tovuz rayonu istiqamətində düşmənin törətdiyi növbəti qanlı təxribat biz gülüstançıları da narahat edir, düşmənə qarşı böyük hiddət doğurur. Lakin biz ordumuzun, gücünü, xalqımızın birliyini, dövlət başçısının qətiyyətli mövqeyini gördük. Bizi sevindirən bir də odur ki, qardaş Türkiyə, Pakistan və s. dövlətlər bizi dəstəklədi, dünya azərbaycanlıları həmrəylik göstərdilər. Allah şəhidlərimizə rəhmət eləsin.**

Daha sonra yenicə işıq üzü görən Hacıbala Mollabəylinin "Daş yaddaşlı Xınalıq, " Səxavət Ənvəroğlunun " Gedirəm " kitablarından söhbət açıldı, həmin kitabların onlayn müzakirəsi keçirildi.

15 nəfərə yaxın "gülüstan"çının qatıldığı onlayn tədbirdə Quba MKS-nin işçiləri, kənd kitabxanalarının müdirləri və başqa oxucular olmaqla 70 nəfərdən çox adam iştirak edirdi.

"Gülüstan"çılar əsasən vətənpərvərlik mövzusunda yazdıqları şeirlərini söyləmiş, oxucuların suallarını cavablandırmışlar.

Axırda məclisin sədri tədbirin təşkilində göstərdiyi köməyə görə MKS-nin direktoru S.Nəsirova minnətdarlığını bildirmiş, məclisin 185 iliyinə həsr edilmiş video-çarxın I hissəsi nümayiş etdirilmişdir.

Aşağıda onlayn tədbirdə söylənilmiş şeirlərin bir qismi ilə "Ədalət" qəzetinin oxucuları da tanış ola bilərlər.

**Şixəmməd Seyidməmmədov,**
**"Gülüstan" elmi-ədəbi məclisin sədri,**
**AYB və AJB-nin üzvü.**

***Qələmşah İdrisov***

## Generalım

***(Şəhid general-mayor Polad Həşimovun xatirəsinə)***

***Azərbaycan ! - Döyüş andın,***
***Örnək oldu Polad adın.***
***Ön cəbhədə mərd dayandın,***
***Qoç Koroğlu, Cavad xanım -***
***generalım!***

***Qisas yerdə deyil qalan,***
***Düşmən yurdu olar talan.***
***Ad qazanan, şəhid olan,***
***Əskərimə qurban canım -***
***generalım!***

***Xalqımız dözmür halına,***
***Gün gələr qisas alınar.***
***Məzara gedən yoluna***
***Gül döşəyim, xalı salım -***
***generalım!***

***Dəfninə gələ bilmədim,***
***Dərdimi bölə bilmədim.***
***Mən niyə ölə bilmədim ?***
***Tanrı qıydı sənsiz qalım -***
***generalım!***

***Silahı almaq vaxtıdır,***
***Tətiyi çaxmaq vaxtıdır.***
***Şuşaya çıxmaq vaxtıdır,***
***İndi budur tək amalım -***
***generalım!***

***Şixəmməd***

## Dur ayağa əziz torpaq !

***Üstündən kəsilib ayaq,***
***Sınıxıb Şuşa qalası.***
***Od tutub yanır Qarabağ,***
***Vətənin həsrət yarası.***

***Qəm bürüyübdü hər yanı,***
***Yurd həsrəti qəlbə girib.***
***İtirib abır-həyasın,***
***Düşmən cilddən-cildə girib.***

***Şirə dönüb yağı düşmən,***
***Böhtan yaxır-arsızlaşıb.***
***Çıxarıbdır ağın düşmən,***
***Köpək kimi diş qıcırdıb.***

***Oğullar vaxtsız qocalar,***
***Ürəyində Qarabağım.***
***Həsrət adlı ox sancılıb,***
***Ürəyimdən, Qarabağın.***

***Düşmən açandan əl-ayaq,***
***Qan ağlayır can vətənim.***
***Dur ayağa, əziz torpaq,***
***Dur ayağa,yurdum mənim !***